Pedaqogika

Məktəbli şəxsiyyətinin mənəvi-iradi keyfiyyətlərinin formalaşdırılmasının elmi-nəzəri əsasları

Namiq Cəfərov
Azərbaycan Dövlət Pedaqoji Universiteti, doktorant.
E-mail: namiqceferov25@gmail.com
https://orcid.org/0000-0002-4281-3443

Xülasə. Məqalədə məktəbli şəxsiyyətinin mənəvi-iradi keyfiyyətlərinin formalaşdırılmasının elmi-nəzəri əsasları haqqında danışılır. Qeyd edilir ki, həyatda və fəaliyyətdə uğur qazanmaq üçün insana intizam və məsuliyyət, əzmkarlıq və məqsədyönlülük kimi mənəvi-iradi keyfiyyətlər lazımdır. Bu keyfiyyətlər şəxsiyyətə cəmiyyətin mənəvi və hüquq normalarına asanlıqla uyğunlaşmaq, onlara könüllü riayət etmək, öz vəzifələrini keyfiyyətlə yerinə yetirmək, müvəffəqiyyət qazanmaqda əzmkarlıq göstərmək və ona nail olmaq imkanı verir. Həmçinin, məqalədə qeyd edilir ki, cəmiyyət ölkədə baş verən hadisələr üçün hər bir insandan məsuliyyət hissinin, şəxsi intizamın, əxlaqi özünüinkişafetdirmənin aktivləşdirilməsini tələb edir.
Açar sözlər: nizam-intizam, məsuliyyət, əzmkarlıq, fiziki tərbiyə, şəxsiyyət, mənəvi keyfiyyətlər, uşaq kollektivi.

http://dx.doi.org/10.29228/edu.77
Məqaləyə istinad:
Cəfərov N. (2019) *Məktəbli şəxsiyyətinin mənəvi-iradi keyfiyyətlərinin formalaşdırılmasının elmi-nəzəri əsasları.* «Məktəbəqədər və ibtidai təhsil». № 4 (229), səh. 29–36.
Məqalə tarixçəsi: göndərilib – 21.08.2019; qəbul edilib – 30.08.2019

Giriş

«İnsanın mənəvi-iradi xüsusiyyətləri çox geniş və bu günümüz üçün aktual olan bir problemdir. Buraya insan mənəviyyatından və əxlaqından başlamış insanların bir-birinə olan münasibəti, mədəniyyəti, ünsiyyət qurmaq bacarığı, mübarizliyi, iradəsi, cəmiyyətə və vətənə olan sevgisi və nəhayət, liderlik

qabiliyyəti daxildir. İnsanlarda bu xüsusiyyət insan şüurunun qavramağa başladığı gündən formalaşmağa başlayır» [Qurbanov H., Yolçuyev S. Bakı, 2003].

İradə insan fəaliyyətinin xüsusi forması olmaqla, məktəblidən öz davranışına nəzarət etməyi, başqa istək və meyillərini ləngitməyi tələb edir. İradə – insanın şüurlu olaraq qarşıya qoyduğu arzu və məqsədlərə müvafiq olan müxtəlif fəaliyyətləri ardıcıl surətdə təşkil edərək, həyata keçirməsi deməkdir. İradi fəaliyyət zamanı məktəbli daxilən öz-özünə hakimlik edir, şəxsi qeyri-ixtiyari impulslarını nəzarətə alır və lazım olduqda, onları cilovlayır. İradənin təzahürü o deməkdir ki, məktəblinin hərəkətlərinin icrası prosesində şüur mütləq iştirak edir. İradi fəaliyyətdə məktəbli öz səylərini, icra olunan psixi proseslərin xüsusiyyətlərini dərk edə bilir və bu zaman yaranmış vəziyyətin qiymətləndirilməsi, arzu olunan hərəkətlərin icrası üçün müvafiq yolların müəyyən edilməsini, məqsədə çatmaq üçün lazımi vasitələrin seçilməsini, nəticəyə uyğun qərar qəbul edilməsini müəyyənləşdirir.

İradi fəaliyyət bir çox hallarda məktəblinin həyat yolunu müəyyənləşdirir, onun şəxsiyyət kimi formalaşmasının əsas amilinə çevrilir və mənəvi simasını səciyyələndirən düzgün qərarların qəbul edilməsi ilə əlaqədar olur. Beləliklə, məktəbli artıq formalaşmış əqidə və düşüncələrə, mənəvi prinsiplərə əsaslanaraq hərəkət edir. Məktəbli üçün vacib olan əsas mənəvi-iradi hərəkətlərin həyata keçirilməsi zamanı onun bütün dünyagörüşü, əqidəsi, fikirləri hisslər formasında onun şüurunda canlanaraq, vəziyyətin qiymətləndirilməsində tələb olunan vasitələrin seçilməsinə təsir edir. O, iradi hərəkəti həyata keçirmək üçün məsuliyyət daşıyacağını aydın dərk edir, özünü bir şəxsiyyət kimi görür və başa düşür ki, həyat yolunu, taleyini özü müəyyən etməyə qadirdir.

İnsanlar müvəffəqiyyətli həyat və fəaliyyət üçün intizam, məsuliyyət, səbrli olmaq, mübarizlik kimi mənəvi-iradi keyfiyyətlərə ehtiyac duyurlar. Bu keyfiyyətlər insana cəmiyyətin mənəvi-hüquqi normalarına asanlıqla, məcburiyyət olmadan uyğunlaşmağa imkan verir.

Qeyd etmək lazımdır ki, alimlər ayrıca olaraq mənəvi və iradi keyfiyyətlər qrupunu (mənəvi-ədalətlilik, doğruçulluq, xeyirxahlıq və s.), (iradi-təşkilatçılıq, cəsarətlilik, təkidlilik və s.) fərqləndirsələr də, intizamlılıq, məsuliyyətlilik, təkidlilik, əzmkarlıq və məqsədyönlülük ümumi iradi keyfiyyətlər kimi qəbul edilir və onlar qarşılıqlı əlaqədədirlər.

Yuxarıda sadalanan xüsusiyyətlərin hər birinin formalaşdırılması yalnız müvafiq şərait təmin olunduğu halda mümkündür. Mənəvi-iradi xüsusiyyətlər yalnız onun təzahür etdirilməsi üçün zərurət olduqda və uşaq bu zərurətin tələblərinə müvafiq fəaliyyət qurmağa çalışdıqda formalaşa bilər. Başqa sözlə, hər bir fərd iradənin nə olduğunu dərk etmək üçün müəyyən bir çətinliyin, daha dəqiq desək, məhz fiziki çətinliyin dəf olunması prosesini keçməlidir. Heç kim anadan cəsarətli doğulmur. Bu, daha çox yaşam prosesində formalaşan insani xüsusiyyətdir. Bu

xüsusiyyət, ilk növbədə, icrası risk tələb edən hərəki fəaliyyəti yerinə yetirərkən formalaşa bilər. Göründüyü kimi, mənəvi-iradi xüsusiyyətlərin formalaşması mexanizminin əsasında onların şagird tərəfindən fiziki cəhətdən hiss edilməsi, yaşanması durur.

Azərbaycan Respublikasında fiziki tərbiyə sisteminin məqsədi hərtərəfli inkişaf etmiş, sağlam və yüksək əmək məhsuldarlığına, vətənin müdafiəsinə hazır olan, müasir cəmiyyətin fəal qurucularını yetişdirməkdən ibarətdir. Belə məqsədlərin əsaslandırılmış qoyuluşunun obyektiv səbəblərindən biri, ilk növbədə istehsalatın və hərbi işin tərəqqisi, insanların fiziki inkişafına və hazırlığına göstərilən tələbatdır.

Fiziki tərbiyənin spesifik sahələrinə və tərbiyənin digər növləri ilə onun qarşılıqlı əlaqəsinə görə əsas vəzifələr 3 qrupa ayrılır:

- müasir cəmiyyətdə insanların hərəki qabiliyyətlərinin inkişafı, sağlamlıqlarının möhkəmləndirilməsi, iş qabiliyyətlərinin yüksəldilməsinə nail olmaq;
- azad cəmiyyət qurucuları olan gələcək Azərbaycan vətəndaşları üçün həyatda zəruri olan hərəkət, bacarıq, vərdiş və xüsusi biliklərin sistemli şəkildə formalaşdırılması və təkmilləşdirilməsi;
- müstəqil Azərbaycan Respublikasının gələcək vətəndaşlarında mənəvi, iradi və estetik keyfiyyətlərin tərbiyə edilməsi, onların zehni inkişafının təkmilləşdirilməsi.

Fiziki tərbiyə sistemində insanların psixoloji xüsusiyyətləri də nəzərə alınır. İdmançıların peşəkar hazırlığı onların psixoloji keyfiyyətləri (iradi və mənəvi keyfiyyətlər) ilə müəyyən olunur. Bu keyfiyyətlər idmançını psixoloji cəhətdən yarışa hazırlayır.

Yuxarıda qeyd olunduğu kimi, şəxsiyyətin ən mühüm, güclü mənəvi-iradi xüsusiyyətləri intizam, məsuliyyət, səbr və məqsədəuyğunluqdur. Bu keyfiyyətlərin, eləcə də şəxsiyyətin formalaşması həm də fiziki tərbiyə və idman fəaliyyəti zamanı baş verir. Erkən yaşlardan başlayaraq uşaqların inkişafında bu fəaliyyət mühüm yer tutur.

Məktəb dövründə uşaq bilik, bacarıq və vərdişlərə sahib olur. Bu zaman onun dünyagörüşünün təməli qoyulur, iradəsi və xarakteri formalaşır. Bu dövrdə müəllimlərdən təhsilalanlarda mənəvi keyfiyyət və düşüncələrin formalaşmasına düzgün rəhbərlik tələb olunur. Şagirddə intizam və məsuliyyətin formalaşdırılması məktəbin qarşısında duran ən ümdə vəzifələrdən biridir.

Professor M. Məhərrəmov təlimdə müvəffəqiyyətin rəhni dedikdə, buraya, ilk növbədə, iradə və müsbət iradi keyfiyyətlərin tərbiyə olunmasını daxil edirdi. Müəllif «Yaxşı oxumağın sirri» əsərində yazır ki, iradə qüvvəsi insan fəaliyyətinin bütün sahələrində yüksək nailiyyətlərə çatmağı təmin edir. Təlim isə fəaliyyətin mürəkkəb növlərindəndir. Möhkəm iradə təlim işində də müvəffəqiyyət qazanmağın rəhnidir. İradə insanın öz fəaliyyətini şüurlu surətdə tənzim edib, qarşıya çıxan çətinlik və maneələrə qalib gəlməsində, özünüidarəetmə bacarığında

təzahür edir [Məhərrəmov M. 1961]. İradə fəaliyyətdən ayrılmazdır, o yoxdursa, fəaliyyət də yoxdur.

Hər bir fəaliyyət zamanı qarşıya qoyulmuş məqsədə nail olmaq üçün səy göstərilir. Məqsədin aydınlığı, hərtərəfli və dərindən dərk edilməsi çox əhəmiyyətlidir. Bu, insanın qüvvələrini səfərbər edir, onu ciddi mübarizələrə hazırlayır. Məqsəd dərk edildikdən sonra ona nail olmaq arzusu yaranır. Arzu – müəyyən məqsədin əldə edilməsinə istiqamətlənməkdir. Arzu etdiyimiz məqsədə nail olmaq üçün düşünür, yollar müəyyənləşdirir, vasitələr əldə edirik.

Şəxsiyyətin mənəvi-iradi keyfiyyətləri iş prosesində təzahür edir və formalaşır. İradi keyfiyyətlər də, mürəkkəb psixi xüsusiyyətlər kimi, insanın həyat prosesində formalaşır, psixoloji səciyyəsinə görə vasitəli xarakter daşıyır.

Mənəvi-iradi keyfiyyətləri mənfi və müsbət olmaqla iki qrupa bölmək olar. *Müsbət mənəvi-iradi keyfiyyətlərə* məsuliyyətlilik, səbrlilik, təkidlilik, qətiyyət, cəsarət, özünü ələ almaq, dözümlülük, intizamlılıq, müstəqillik və s. aid edilir. Bu keyfiyyətlərin hər birinin əksini *mənfi iradi keyfiyyətlər* təşkil edir. Mənfi iradi keyfiyyətlərə təqlidçilik, tələqinə qapılmaq, neqativlik, tərsliyi də aid etmək olar. Mənəvi-iradi fəaliyyət prosesində uşağın müvafiq iradi keyfiyyətləri təzahür edir və formalaşır.

Məktəblilərdə mənəvi-iradi fəaliyyət özünü müxtəlif formalarda büruzə verir. Əgər şagirdlərin birində təkidlilik görünürsə, başqa birində bu keyfiyyət müşahidə olunmur, biri özünü çox müstəqil aparırsa, digəri, əksinə, tez təsir altına düşür. Biri öz əzmi, cəsarəti ilə hamını heyran edirsə, digəri öz qətiyyətsizliyi ilə fərqlənir və s. Deməli, şəxsiyyətin mənəvi-iradi fəaliyyətini müsbət və mənfi cəhətdən səciyyələndirən davranışında bu fəaliyyətin icra üsulları müəyyənləşib sabitlik kəsb etdikdə onlar şəxsiyyətin şəxsi mənəvi-iradi keyfiyyətlərinə çevrilir. Belə keyfiyyətlər çoxdur.

Belə bir sual meydana çıxır: mənəvi-iradi keyfiyyətlər necə formalaşır? Müxtəlif mənəvi-iradi keyfiyyətlərin formalaşması yolları haqqında sualın cavabı birmənalı deyil. Mənəvi-iradi keyfiyyətin xarakterindən asılı olaraq, onun konkret təşəkkülü şəraitindən danışmaq olar, lakin şəxsiyyətin mənəvi-iradi keyfiyyətlər kompleksinin formalaşmasına kömək edən ümumi cəhətləri də yaddan çıxarmaq olmaz. Müsbət mənəvi-iradi keyfiyyətlərin inkişafına şəxsiyyətin bir sıra mühüm xüsusiyyətləri təsir edir. Belə xüsusiyyətlərə, ilk növbədə, güclü borcluluq hissini (vətən, valideynlər qarşısında), həyati məqsədlərin aydınlığını, bu məqsədlərə çatmaq əzmini aid etmək olar. Bu xüsusiyyətlər insanın öz davranışında fəal, niyyətlərində təkidli olması üçün lazımi şərait yaradır, onu mübarizliyə sövq edir.

Mənəvi-iradi xüsusiyyətlərin formalaşdırılması məktəblilərin tərbiyəsində ən mühüm məzmun xətlərindən biridir. Fiziki tərbiyə dərsləri digər fənlərin tədrisi prosesindən fəal və mütəhərrik olması ilə fərqlənir. Bu, şagirdlərin mənsub olduqları davranış xüsusiyyətlərini müəyyənləşdirməyə və buna müvafiq tərbiyə

metodlarını seçməyə şərait yaradır. Eyni zamanda, qeyd etmək lazımdır ki, mənəvi-iradi xüsusiyyətlərin formalaşması yalnız müvafiq şəraitin yaradıldığı hallarda mümkündür. Hər hansı çətinliyin dəf edilməsi, yorğunluğa qarşı dözüm, icrası risk tələb edən hərəkəti yerinə yetirmək və s. hallar iradi keyfiyyətlərin formalaşması üçün zəmin yarada bilər. Ciddi oyun və yarış qaydaları, onlara riayət olunması şagird psixologiyasında nizam-intizam anlayışını formalaşdırır, lakin fiziki tərbiyə prosesində çox mühüm bir cəhət diqqət mərkəzində saxlanılmalıdır. Bu, oyun, yarış, hətta ən sadə hərəkətlərin icrasında şagirdlərin tərəf-müqabillərinin seçilməsi zamanı biri-birinə fiziki hazırlıq cəhətdən yaxın olan iştirakçıların müəyyən edilməsidir.

Fiziki cəhətdən zəif olan şagird öz gücünə müvafiq iştirakçı ilə yarışmalıdır. Dərs prosesində zəif şagirdin fiziki cəhətdən daha yüksək hazırlıqlı şagirdlə yarışmasına yol vermək olmaz. Bu halda zəif şagirddə müəyyən mənada psixoloji təcrid sindromu yarana bilər. Belə uşaqlar dərs, oyun, yarışlarda iştirak etməkdən çəkinir, özünütəcrid vəziyyətinə düşürlər. Fiziki tərbiyə dərsləri elə təşkil olunmalıdır ki, şagirdin fiziki cəhətdən zəif olduğu hamı tərəfindən hiss olunmasın. Bu kateqoriyaya aid olan şagirdlərin fiziki hazırlığında baş verən ən cüzi müsbət dəyişikliklər də təqdir olunmalı, rəğbətləndirilməlidir. Bu səbəbdən də komandaları, qrupları formalaşdırarkən çalışmaq lazımdır ki, şagirdlər fiziki hazırlıq cəhətdən bir-birinə uyğun olsunlar.

Ümumtəhsil məktəblərində təhsil illəri şagirdin əqli, iradi, fiziki cəhətdən inkişafı və formalaşdırılması dövrünü əhatə edir. Şagird şəxsiyyətində mənəvi-iradi xüsusiyyətlərin formalaşdırılmasında metodik cəhətdən düzgün təşkil edilmiş fiziki tərbiyə dərsləri müstəsna təsir imkanlarına malikdir.

Q.D.Babuşkin və V.N.Smolentsova belə hesab edirlər ki, mənəvi-iradi keyfiyyətlərin formalaşmasında aşağıdakı qaydalara riayət olunmalıdır:

- əhəmiyyətsiz çətinliklərlə mübarizədə asan tapşırıqların (ilk mərhələdə asan tapşırıqlar məktəblilərdə mənəvi-iradi keyfiyyətlərin formalaşmasına kömək edir) intensivliyini tədricən artırmaq;
- təyin edilmiş vəzifəni yerinə yetirməyə sövq etmək;
- çətin tapşırığın yerinə yetirilməsinin mümkünlüyünə əminlik yaratmaq;
- sürətli və çox güc sərf edilən hərəkətlərin icrasına nail olmaq;
- tapşırıqların necə yerinə yetirilməsinə diqqət göstərərək, onların düzgün icrasını tələb etmək və s. [Омск, 2007].

Bundan əlavə, müəlliflər mənəvi-iradi keyfiyyətlərin formalaşması üçün vacib və zəruri şərtin özünütərbiyə olduğunu göstərirlər. Bu baxımdan, özünütərbiyənin əsas prinsipləri aşağıdakılardır:

- özünə nəzarət etməyi bacarmaq, istədiyini deyil, lazım olanı yerinə yetirmək;
- hər zaman mükəmməl nəticə göstərməyə nail olmaq, öz fəaliyyətinin ilk və son nəticələrini gözləmək şərti ilə hər şeyi dəqiq, səliqəli yerinə yetirmək;

• öz fəaliyyətindəki uğursuzluqların səbəblərini başqalarında, qeyri-obyektiv səbəblərdə deyil, ilk növbədə özündə axtarmaq və həmişə özünə münasibətdə ciddi bir hakim olmaq [Асадова И. 2017].

İnsan bütün həyatı boyu qarşısına qoyduğu məqsədlərə çatmaq üçün çətinliklərlə mübarizə aparır. Bəzən çətinliklərlə qarşılaşdıqda ehtiyat edir, geri çəkilməli olur və bunu bir uğursuzluq sayaraq iztirab çəkir. Çətinliklərin aradan qaldırılmasında, məqsədə çatmaq üçün iradi səy göstərilməsində möhkəm əqidənin, həyati məsələlər haqqında yetkin, kamil dünyagörüşünün və əsl insan ləyaqətinin böyük əhəmiyyəti vardır.

Müvafiq psixi proseslərin və xüsusiyyətlərin formalaşdırılması prinsipində şəxsiyyətin iradəsinin rolu son dərəcə əyani şəkildə əks olunur. İnsan iradi hərəkətlərə əməl etdiyi, səy göstərdiyi, çalışdığı, öz daxilində ətalət, tənbəllik, zərərli vərdişlər, ani əhvali-ruhiyyəyə qapılma halları və ətraf mühitdə olan maneələrlə mübarizə apardığı üçün onda əsaslı qərarlar qəbul etmək qabiliyyəti, təkidlilik, soyuqqanlılıq, təmkinli olmaq və s. mənəvi-iradi keyfiyyətlər inkişaf edir. İnsanın özünə hakim olmaq kimi dəyərli mənəvi-iradi keyfiyyəti çətinliklərlə gündəlik mübarizədə formalaşır.

Uşaqların mənəvi-iradi keyfiyyətlərinin formalaşmasında kollektivin də rolu böyükdür. Əgər kollektivə mənsub olmaq uşaq üçün bir məna kəsb edirsə və o, həmin kollektivin fikri, rəyi ilə hesablaşırsa, iradə tərbiyəsində belə kollektivin rolu daha böyük olur. Uşaq kollektivlə bağlılığını hiss edirsə, həmin kollektivdə özü üçün səmərəli davranış nümunələri görür. Hər bir formalaşmış kollektiv öz üzvlərindən müəyyən davranış qaydalarına riayət olunmasını tələb edir. Bu tələblər vəzifələrin vaxtında yerinə yetirilməsindən, yoldaşlarla fəal ünsiyyət saxlamaq, onlara qayğı göstərməkdən və kollektivin nüfuzunu qorumağa çalışmaqdan ibarətdir. Bu tələblər kollektiv üzvü üçün elə bir şərait yaradır ki, o, özünü iş prosesində göstərməyə, təmkinli, soyuqqanlı olmağa məcbur edir.

Kollektivin keyfiyyətcə daha çətin tapşırıqlarını yerinə yetirdikcə, yüksək səviyyədə müstəqillik və təşəbbüskarlıq tələb edən hərəkətlər icra etdikcə uşağın lazımi mənəvi-iradi keyfiyyətləri də inkişaf edir. Müntəzəm surətdə icra edilən uğurlu mənəvi-iradi hərəkətlər sayəsində uşaqda öz qüvvəsinə inam və insanlarla birgə fəaliyyətdən razılıq hissi yaranır.

Şəxsiyyətin mənəvi-iradi keyfiyyətlərinin inkişafı təsirli bir qüvvə kimi ətrafdakı reallıqların və şəxsiyyətin özünün də dəyişməsi ilə nəticələnir. Bu prosesdə mühüm amilin fiziki tərbiyə və idman olduğu birmənalıdır. «Fiziki tərbiyə fənninin tədrisi zamanı məktəbli şəxsiyyətinə, onun ətrafdakılarla əməkdaşlığına və şagird yoldaşlarının fiziki, psixi, mənəvi-iradi keyfiyyətlərinın formalaşdırılmasına şüurlu, məqsədyönlü, humanist təsiri üçün böyük imkanlar yaranır» [Qurbanov H., Yolçuyev S. Bakı, 2003].

Nəticə

Bu tədqiqatdan belə bir nəticə hasil olur ki, bədən tərbiyəsi dərslərində məktəblinin xarakterinin sosiallaşması baş verir, möhkəmlənir və kollektiv münasibətlərin mexanizmləri ortaya çıxır. Fiziki tərbiyə dərslərində yalnız hərəki bacarıq və vərdişlər yaranmır, həm də insanın digər qabiliyyətləri – intellektual keyfiyyətləri, estetik qabiliyyətləri, ünsiyyət bacarıqları, mənəvi davranış normaları formalaşır. Fiziki tərbiyə özünəməxsus xüsusiyyətlərə malikdir. İnsan bu prosesdə müxtəlif hərəkətləri öyrənməklə öz fiziki keyfiyyətlərini inkişaf etdirir və təkmilləşdirir. İnsanın təkmilləşməsində mənəvi-iradi keyfiyyətlər mühüm rol oynayır. Hərəki qabiliyyətlər müxtəlif fiziki təmrinlər nəticəsində formalaşır və iradi hərəkətlərin məqsədyönlü icrasına səbəb olur.

Mənəvi-iradi fəaliyyətin səviyyəsinin yüksəlməsi nəticəsində insan özünü ələ alır və bu, dözümlülük, soyuqqanlılıq bacarıqlarında təzahür edir. Beləliklə, soyuqqanlılıq arzuedilməz, təhrikedici qüvvələri şüurlu şəkildə özünə tabe etmək bacarığıdır. İradə insanın özü tərəfindən də bəyənilməyən hisslərin: əsəbiliyin, qorxu, hiddət, qəzəb, ümidsizlik affektlərinin və s. təzahürünün qarşısını almaq bacarığında ifadə olunur.

Beləliklə, müəyyən yaş həddində şəxsiyyətin mənəvi-iradi keyfiyyətlərinin inkişafı prosesinə təlim-tərbiyə prosesində mühüm amil olan özünütərbiyə də əlavə olunur. Həmin dövrdə məktəbli nəinki öz davranışını tənqidi cəhətdən qiymətləndirməyi bacarır, həm də qarşısına özünütərbiyə və öz şəxsiyyətinin keyfiyyətini dəyişmək vəzifələrini qoyur.

Scientific and theoretical bases of formation of moral qualities of schoolchildren

Namig Jafarov
Azerbaijan State Pedagogical University, Doctoral student.
E-mail: namiqceferov25@gmail.com

Summary. The article discusses the scientific and theoretical basis for the formation of the moral qualities of school children. It is mentioned that in order to be successful in life, a person needs moral qualities such as discipline and responsibility, diligence and dedication. These qualities help the individual to adapt to the moral and legal norms of society, and to adhere to it voluntarily. When moral qualities are mastered, it creates condition qualitatively fulfill their duties, be diligent in achieving success, and reach their goals. The article also emphasizes that social progress requires every person to have a sense of responsibility, personal

discipline and moral self-awareness for what is happening in the country and in the world. Morality is aimed at this purpose as a mechanism of moral regulation between the individual and society.
Keywords: discipline, responsibility, perseverance, determination, physical education, spiritual qualities of a person, moral qualities.

İstifadə edilmiş ədəbiyyat

1. Həmzəyev M. (1991). Pedaqoji psixologiya. Bakı, «Maarif», 296 s.
2. Qurbanov H., Yolçuyev S. (2003). Pedaqoji təcrübə. Bakı.
3. Qurbanov H., Əsgərov Y., Ramazanov Ə. (2006). Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası. Bakı.
4. Məhərrəmov M. (1961). Yaxşı oxumağın sirri. Bakı.
5. Асадова И. (2017). Организация самоаудита в управлении общеобразовательными школами. Научно-методический журнал «Педагогика и психология», №1, с.165-172.
6. Сарсония С., Селюянов У.(1991). Физическая подготовка в спортивных играх. Москва.
7. Учебник для высших физкультурных учебных заведений. (2007). Под ред. проф. Г. Бабушкина, проф. В. Смоленцевой. Омск, 270 с.